# Sabit siyasi sistemə, güclü iqtisadiyyata malik ölkə



## *Müasir müstəqil Azərbaycan yaratdığı reallıqlarla yüksələn nüfuzunu daha da möhkəmləndirir*

*Azərbaycan beynəlxalq müstəvidə güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında müasir çağırışlara, milli maraqlara uyğun reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır.*

Milli inkişaf modelinin uğurla tətbiq olunması və hədəflənən nəticələrin əldə edilməsi, siyasi, hüquqi və sosial-iqtisadi islahatların davamlı olaraq həyata keçirilməsi, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi, qazanılan nailiyyətlər müasir müstəqil Azərbaycanın reallıqlarını ehtiva edir.

Hazırda dünyada respublikamız kimi dinamik iqtisadi inkişaf templərinə malik ölkələrin sayı çox azdır. Milli iqtisadiyyat davamlı olaraq genişlənir, ölkənin maliyyə imkanları artır. Öz növbəsində ölkəmizin iqtisadi müstəqilliyinin tam şəkildə təmin edilməsi respublikamızın siyasi müstəqilliyini şərtləndirir. Bu gün güclü Azərbaycan dövləti milli maraqları qətiyyətlə qoruyur.

**(davamı 5-ci səhifədə)**

GÜNÜN SİYASİ NƏBZİ





# Sabit siyasi sistemə, güclü iqtisadiyyata malik ölkə



## *Müasir müstəqil Azərbaycan yaratdığı reallıqlarla yüksələn nüfuzunu daha da möhkəmləndirir*

**(əvvəli 1-ci səhifədə)**

"Güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir. Çünki xarici siyasət, - bunu hamı bilir, - daxili siyasətin davamıdır. Ona görə bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi". Bu fikirləri ötən il fevralın 14-də Azərbaycan Prezidenti İlham Əliyev Milli Məclisdə andiçmə mərasimində bildirib.

Enerji sektoru əməkdaşlıq əlaqələrinin qurulmasında əsas amillərdən biridir. Azərbaycanın iqtisadiyyatı düzgün əsaslar üzərində qurması beynəlxalq səviyyədə təqdir edilir. Neft siyasətinin məntiqi davamı olaraq iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurları bugünkü reallıqları da özünün aydın ifadəsini tapır. Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və BMT Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Bu dünya miqyaslı tədbir Azərbaycanın gündəliyinin "yaşıl enerji" ilə bağlılığını nümayiş etdirməklə yanaşı, "yaşıl enerji" növlərinin yaradılmasının, dünya bazarlarına nəqlinin ölkəmizin enerji siyasətinin prioriteti olmasının təqdimatı idi. Azərbaycanın COP29-a ev sahibliyi ölkəmizə beynəlxalq baxışın yüksək səviyyədə olmasının göstəricidir. Ölkə başçısı İlham Əliyev forumdakı çıxışında COP29-un ölkəmizdə keçirilməsinin önəmindən bəhs edərək bildirdi ki, əlbəttə, bu, Azərbaycana olan beynəlxalq ictimaiyyətin böyük hörmət və dəstəyinin təzahürüdür. Prezident İlham Əliyevin səsləndirdiyi hər bir fikir gələcəyimizlə bağlı çağırışdır. Azərbaycanın hər dövrün tələblərini özündə ehtiva edən təkmil siyasət həyata keçirməsi hədəflərə zamanında nail olmasına stimul verir.

Bu günün ən aktual məsələlərindən biri məhz iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə fəal olmaq, töhfələr verməkdir. COP29 Azərbaycanın, eyni zamanda, iştirakçı ölkələrin bu sahədə yeni əməkdaşlıq münasibətlərinin yaradılmasına imkan verəcək. Azərbaycanın COP29-a ev sahibliyi etməsi fonunda dünyanın təmiz enerjiyə transformasiya nəbzinin ölkəmizdə döyündüyünü nəzərə alsaq Prezident İlham Əliyevin Azərbaycanın "yaşıl gündəliyi"ni ehtiva edən fikirləri perspektiv enerji xəritəsini müəyyənləşdirmək üçün mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, "yaşıl enerji" təşəbbüsləri ilə COP29 kimi qlobal platformalarda lider mövqe nümayiş etdirilir. COP29-un "Bakı sıçrayışı" adlandırılması, İtki və Zərər fondlarının yaradılması Azərbaycanın beynəlxalq miqyasda məsuliyyətli aktor kimi tanındığını göstərir. Bu mötəbər tədbir Azərbaycanı yalnız neft və qaz ixracatçısı deyil, həm də qlobal iqlim hədəflərinin fəal tərəfdaşı kimi təqdim edir.

Azərbaycanın regional enerji mərkəzinə çevrilməsi artıq faktdır. Regionun əsas sənaye tədbirlərindən biri olan və hər il dünya enerji liderlərini bir araya gətirən "Baku Energy Week" çərçivəsində bu il üç əhəmiyyətli tədbir - 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgisi "Caspian Power" və 30-cu Yubiley Bakı Enerji Forumu birləşdirilib. Azərbaycan Prezidenti İlham Əliyevin hər il açılış mərasimlərində iştirakı tədbirin yüksək statusunu bir daha nümayiş etdirir. Bakı Enerji Həftəsində iştirak edən beynəlxalq nümayəndələrin və respondentlərin yekdil fikrinə görə, "Caspian Oil and Gas" sərgisi neft, qaz və enerji sahəsinin aparıcı mütəxəssislərinin ənənəvi görüş yerinə çevrilib. "Baku Energy Week" keçirildiyi illər ərzində regional və beynəlxalq səviyyədə etibarlı enerji platforması statusu qazanıb. 30 il ərzində "Baku Energy Week" Azərbaycanda neft, qaz və enerji sənayesinin inkişafına töhfə verib, dünyanın 80 ölkəsindən 9000-dən çox şirkəti, 170 000-dən artıq ziyarətçini cəlb etmişdir. Bu il "Baku Energy Week" 39 ölkədən 267 şirkəti qəbul edib. Ölkələr arasında Azərbaycanla yanaşı Almaniya, Amerika Birləşmiş Ştatları, Avstriya, Belarus, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya və Şimali İrlandiya, Bolqarıstan, Çexiya, Çin, Estoniya, Finlandiya, Fransa, Gürcüstan, Hindistan, İsrail, İsveçrə, İtaliya, Qazaxıstan, Qvineya-Bisau, Lüksemburq, Macarıstan, Misir, Monako, Niderland, Norveç, Özbəkistan, Pakistan, Polşa, Rumıniya, Rusiya, Sinqapur, Səudiyyə Ərəbistanı, Slovakiya, Sloveniya, Türkiyə, Ukrayna, Yaponiya iştirak edib. Almaniya Federativ Respublikası Milli pavilyon ilə iştirak edirdi.











Neft və qazın ÜDM-dəki payı 30 faizdən artıqdır. Xarici borcun aşağı səviyyədə olması və maliyyə ehtiyatlarının çoxluğu ölkənin dayanıqlılığını təmin edir. Azərbaycan genişmiqyaslı islahatlar həyata keçirir, bizim iqtisadiyyatımız özünü təmin edir. Prezident İlham Əliyev deyib: "Bizim xarici borcumuzun səviyyəsi ÜDM-in 7 faizindən azdır və maliyyə ehtiyatlarımız borcumuzu 14 dəfə üstələyir. Milli sərvətlərin düzgün bölüşdürülməsi nəticəsində yoxsulluğun azaldılmasına müvəffəq olduq və bu gün yoxsulluq səviyyəsi 5 faizə bərabərdir. Enerji siyasətində yalnız hasilat deyil, həm də bərpaolunan enerji mənbələrinə keçid əsas prioritetlər sırasındadır. 2030-cu ilə qədər 6,5 giqavat gücündə yaşıl enerji istehsalı nəzərdə tutulur. Cənub Qaz Dəhlizi kimi nəhəng layihələr sayəsində Azərbaycan artıq Avrasiyanın enerji xəritəsində mühüm bir mərkəzə çevrilib".

Ölkəmiz Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və TAP kimi irimiqyaslı layihələrin təşəbbüskarı və icraçısıdır. Bu layihələr sayəsində Azərbaycan Xəzər dənizini Aralıq və Qara dənizlərlə birləşdirən enerji körpüsü yaradıb. Qlobal enerji bazarının dəyişən şərtlər fonunda Azərbaycanın sabit və etibarlı tərəfdaş imici daha da möhkəmlənib. Vaxtilə tranzit potensialını şübhə altına alan dövlət və şirkətlər bu gün etiraf edirlər ki, respublikamız Avropa enerji təhlükəsizliyində mühüm əhəmiyyətə malikdir. Bu gün ölkəmiz 12 ölkəyə qaz ixrac edir və bu say inkişaf edən xətlə artmaqdadır. Eyni zamanda, "yaşıl enerji" təşəbbüsləri ilə COP29 kimi qlobal platformalarda lider mövqe nümayiş etdirilir. Azərbaycan neft və qaz ölkəsi olmaqla yanaşı, investorlarla bərabər məhz "yaşıl enerji"yə sərmayə qoyub. Bu da bizim məsuliyyətimizi nümayiş etdirir. Prezident İlham Əliyevin çıxışlarında bu reallıqlar daim önə çəkilir ki, Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq uzun illərdir təmin edilir, sabitlik bütün dünya üçün nümunə ola bilər. Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz. Bu gün sabitliyi pozulan ölkələrin vəziyyətini və aqibətini hər kəs yaxşı görür. Bu təhlükəsizliyin, inkişafın, xarici sərmayənin cəlb edilməsi üçün başlıca şərtdir.

Bütün sosial-iqtisadi məsələlərin uğurla öz həllini tapdığını, ölkəmizdə təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı bildirib ki, Azərbaycan bu bölgədə və dünyada sabitlik məkanı kimi tanınır: "Əlbəttə ki, belə bir şəraitdə həm investisiyaların qoyuluşu üçün maraq göstərilir, eyni zamanda, xalqımız rahat yaşayır, əhalimizin rifah halı yaxşılaşır. Azərbaycan xalqı təhlükəsizlik, əmin-amanlıq şəraitində öz gələcəyini qurur". Güclü iqtisadiyyat, siyasi-iqtisadi sabitlik, hökumətin proqnozlaşdırılan siyasəti - bütün bu amillər və çoxsaylı dövlətlərlə sıx münasibətlərin qurulması bugünkü reallığın yaradılmasına kömək edir. Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində dünyada böyük nüfuz qazanan Azərbaycan artıq ən mühüm mövzuların müzakirə olunduğu mötəbər beynəlxalq tədbirlərin təşəbbüskarı və təşkilatçısı kimi tanınır.

Onu da qeyd edək ki, hazırda müxtəlif regionlarda münaqişələr, müharibələr qlobal kataklizmlərin mövcudluğundan xəbər verir. Ətraf və yaxın regionlarda da belə mürəkkəb vəziyyət müşahidə olunur. Bu gərginlik isə siyasi kataklizmlərin dərinləşməsini şərtləndirir ki, bu da nəticə etibarilə, həm inteqrasiya və əməkdaşlığı zəiflədir, həm də siyasi münasibətlərdə müəyyən qədər etimadsızlıq mühitinin, ziddiyyətlərin artmasına səbəb olur. Belə olan şəraitdə milli dövlətlərin siyasi sabitliyi və iqtisadi inkişafı təmin etmələri daha çox strateji əhəmiyyət kəsb edir. Bu kontekstdə ölkəmizin təcrübəsi müsbət və mütərəqqi nümunə kimi diqqəti cəlb edir. Yəni qlobal miqyasda hökm sürən belə bir mürəkkəb şəraitdə Azərbaycan ictimai-siyasi sabitliyin təmin olunduğu, pozitiv beynəlxalq imicə sahib olan ölkələr sırasında aparıcı yerlərdən birini tutur.

Ölkəmizin dünyadakı təlatümlər dənizində sabitlik və inkişaf adasına çevrilməsi kimi müstəsna nailiyyətə məhz Liderimizin - Prezident İlham Əliyevin rəhbərliyi ilə nail olunub. Azərbaycanda inkişaf və reallıq formalaşıb. Bu ondan ibarətdir ki, ölkədə bütün sosial təbəqələrin nümayəndələri İlham Əliyevi özünə daha yaxın bilir və ona güvənir. Prezidentin ifadə etdiyi fikirlər, verdiyi vədlər cəmiyyətdə razılıqla qəbul olunur və onların həyata keçiriləcəyinə heç bir şübhə yeri qalmır. Bu isə artıq milli güc anlamına gəlir. Cəmiyyətdə Prezident İlham Əliyevə olan sarsılmaz inam imzası ilə sözünün eyni çəkiyə malik olmasının nəticəsidir.

Dövlət başçısı vurğulayır ki, insan kapitalına və təhsilə ciddi maliyyə vəsaitləri yatırdıq. Savadlılıq səviyyəsi 100 faizə bərabərdir. Azərbaycan regionda yeni mühit formalaşdırdı. Tərəfdaşlarımızla birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa etmişik. Açıq dənizə çıxışı olmayan ölkə olduğumuza baxmayaraq, Avrasiyanın vacib nəqliyyat qovşaqlarının birinə çevrilmişik. İnvestorlar da ancaq sabitlik olan yerlərə sərmayə qoyurlar.

Gələcəkdə daha çox xarici sərmayədar Azərbaycana investisiya qoymaq üçün bizə müraciət edəcək. Təbii ki, bunu şərtləndirən amillər var. Azərbaycanın işğal altında olan torpaqları azadlığa qovuşub. Hər bir ərazimiz özünəməxsus potensiala malikdir. Onlardan səmərəli istifadə etmək məqsədilə, Prezidentin müvafiq Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü həyata keçirildi. Artıq işğaldan azad edilmiş ərazilərin potensialdan istifadə etmək imkanları yaranıb.

**Mustafa KAMAL,**
**"Respublika".**